Azerbaijanian Journal of Economics and Social Studies

**Azərbaycanın İqtisadi və Sosial Araşdırmalar Jurnalı**
Sayı/Number 3, 2015
**www.azjess.com**

# AZƏRBAYCANDAN AVROPA İTTİFAQI ÖLKƏLƏRİNƏ FINDIQ İXRACININ MÜASİR VƏZİYYƏTİ VƏ ONUN ARTIRILMASI YOLLARI

**Elnur Vaqif oğlu Əliyev**
İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun
doktorant

**Xülasə**

Məqalədə Avropa İttifaqı ölkələrinin fındıq idxalının dinamikası və coğrafiyası, həmçinin idxal prosedur və qaydaları, gömrük rüsum və vergiləri, eləcə də Azərbaycandan bu bazarlara fındıq ixracının genişləndirilməsi yolları öyrənilmişdir.

Eyni zamanda ixracın diversifikasiyasına nail olmaq, eləcə də qeyri-neft ixracının artırılması məqsədilə Azərbaycan mənşəli fındığın Aİ bazarlarında üstün və zəif cəhətləri araşdırılmış, onun rəqabət qabiliyyətinin yüksəldilməsi ilə bağlı müvafiq təkliflər irəli sürülmüşdür.

**Açar sözlər:** Avropa İttifaqı, fındıq, ixrac potensialı, ixrac coğrafiyası, Fındıq İxracatçıları Birlikləri.

## Giriş

İxracın diversifikasiyası, o cümlədən qeyri-neft sektorunun inkişafı dövlətimizin iqtisadi-sosial siyasətinin başlıca istiqamətlərindən biridir. Məhz bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin 29.12.2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası ölkənin iqtisadi siyasətinin əsas tərkib hissəsi olmaqla iqtisadiyyatın şaxələndirilməsini, neft gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunun yüksək inkişaf tempini gələcək illərdə də qoruyub saxlamaq və onun ixrac imkanlarını genişləndirilməsini əsas məqsəd kimi qarşıya qoymuşdur. Bu Konsepsiya ixrac yönümlü iqtisadi modeli əsas götürməklə, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi vasitəsilə qeyri-neft ixracının artımına nail olmağı nəzərdə tutmuşdur.

Bu baxımdan, hesab edirik ki, ixracın diversifikasiyası və qeyri-neft ixracının artırılması məqsədilə, ölkəmizin ixrac potensialı olan sektorlar hətta konkret məhsullar müəyyənləşdirilməli, bu məhsulların ixracı və ixracın coğrafiyası ətraflı təhlil edilməlidir. Digər tərəfdən həmin məhsulların ənənəvi və potensial ixrac bazarlarına

ixracının artırılması yolları araşdırılmalı, bu məqsədlə beynəlxalq təcrübədə istifadə edilən mütərəqqi mexanizm və alətlər formalaşdırılmalı və tətbiq edilməlidir.

Belə ixrac potensialı olan məhsullardan biri də fındıqdır. Araşdırmalara görə Azərbaycan hazırda dünyada Türkiyə, İtaliya və ABŞ-dan sonra 4-cü ən böyük fındıq istehsal edən ölkədir. Bəs Azərbaycan mənşəli fındığın əsas xüsusiyyətləri nədən ibarətdir?

Azərbaycan fındığı özünün nadir tamı və digər təbii xüsusiyyətlərinə görə qədim zamanlardan insanların, ilk növbədə fındığın ənənəvi yayıldığı coğrafi regionların əhalisinin qida rasionunda özünə məxsus yer tutmuşdur. Zülal, karbohidrat və yağlar, kalsium, kalium, natrium və ferrum kimi kimyəvi elementlər, olein, stearin və palmitin turşularının qliseridləri, insan orqanizmi üçün faydalı olan digər elementlər və onların qarışıqları fındığın tərkibində geniş təmsil olunduğuna görə onun qida məhsulu kimi istifadəsi insan orqanizmində qan-damar xəstəlikləri və kanserogenlərin yaranmasının, xolesterinin artmasının qarşısını alır, əzələ, sümük, əsəb və immun sistemlərinin möhkəmlənməsinə, reproduktiv imkanların inkişafına və ümumi həyat fəaliyyəti dərəcəsinin yüksəlməsinə çox müsbət təsir göstərir. Fındığın bu və insan orqanizmi üçün faydalı olan digər xüsusiyyətləri onun əhalinin bütün yaş təbəqələrinin qida rasionuna daxil edilməsinin zəruriliyini təsdiq edir.

Azərbaycanda fındığın müxtəlif növlərinin yetişdirilməsi və emal olunması sahəsində əsrlər boyunca davam edən ənənələr formalaşıb və hal-hazırda müvəffəqiyyətlə inkişaf etdirilir. Bu növlərdən ən məşhur olanı, fındığın yetişdirilməsi üçün əlverişli şəraiti ilə fərqlənən Şəki – Zaqatala bölgəsində geniş miqyasda yayılmış (fındıq ağaclarının ümumi sayının 95 faizi), özünün xüsusi dadı və digər müsbət keyfiyyətləri ilə seçilən “Atababa” növüdür (6).

Azərbaycanın ərazisindən keçən Böyük İpək Yolunun dövründən başlayaraq sonrakı tariximizin bütün mərhələlərində Azərbaycan fındığı dünyanın müxtəlif bölgələrinə ixrac olunan kənd təsərrüfatı məhsullarının sırasında daimi olaraq qabaqcıl yerlərdən birini tuturdu. Hal-hazırda Azərbaycan fındığı yetişdirilməsi və emalına məxsus xüsusiyyətlərinə görə ekoloji baxımından daimi təmiz və saf məhsul olaraq, özünün tamı və keyfiyyət göstəriciləri baxımından türk fındığının tanınmış növlərindən geri qalmayaraq, dünya bazarında qətiyyətlə müvafiq mövqeləri qazanmaqdadır (6).

## Fındıq haqqında qısa araşdırma

Fındıq qədim dövrdən bəri məlum olan, qida və dərman kimi istifadə edilən bir meyvədir. Dünyada yabanı fındıq növləri əsasən 30-40-cı şimal paralelləri arasındakı coğrafiyada yetişməkdədir. Türkiyəli alim **Mustafa Dumanın** fikrincə bugünkü mədəni fındıq dediyimiz əhilləşdirilmiş fındıq növlərinin vətəni hazırkı Anadoludur. Və buradan Yunanıstan, İtaliya, İspaniya və digər ölkələrə yayılmışdır. Müasir dövrdə dünyada istehsal olunan fındıq məhsulunun 70%-i Türkiyənin payına düşür. Onu da qeyd etmək yerinə düşər ki, Türkiyədən sonra dünyada ən çox fındıq istehsal edən ikinci ölkə İtaliya, üçüncü isə Azərbaycandır (1).

Fındıq sözü, Antik dövrdə Qaradənizin adı olan “Pont Exinus”dan əldə edilmiş “pontik” sözündən meydana gəlmişdir. **Plinus** da, Pontos sahillərinə gətirildiyi üçün fındığa “Pontos qozu” yəni “nux pontika” deyildiyini qeyd etmişdir (2, səh. 492). **Herodot**, Azov dənizinin şimalında yaşayan bir İskit qəbiləsinin, noxud böyüklüyündə, sərt qabığa malik, adına “pontikum” deyilən bir meyvə ilə qidalandığını yazmışdır. Bu

meyvənin parçalar arasında əzməklə yağının alındığını və lətindən çörək hazırlandığını qeyd edirdi (3, səh. 236).

**Kamal Peker** "Fındık" (Fındıq) adlı kitabında bu məhsulun tarixinin çox keçmişlərə dayandığını, ondan ta qədim zamanlardan bəri insanların istifadə etdiyini yazmışdır. Peker bu kitabında bir Çin arxivindən gətirilmiş sənədi tərcümə etdirmiş və məlum olmuşdur ki, bizim e.ə. 2838-ci ildən əvvəl yazılmış bu mətndə fındıqdan bəhs edilmişdir. Bu isə bir daha fındığın çox qədimdən Çində insanlara məlum olduğunu və onların qida rasionunda çox önəmli bir yer tutduğunu sübut edir (4, səh. 7).

**Mustafa Dumanın** fikrincə fındıq Akdəniz, Yaxın Şərq və Avropa ölkələrində, Cənubi Qara dəniz sahillərində və Qafqaz dağları ətəklərində geniş yayılmışdır. O qeyd edir ki, fındıq məhsulunun farsca adı "fonduk", ərəbcə "bonduk", latınca "nux", almanca "haselnuss", fransızca "noisette", ingiliscə "hazelnut", rumınca "leptokarion", tatarca "çitlevük", yunanca "funduki", italiyanca "nucciola", ispanca "avellana", portuqalca "avella", romanca "aluna"dır (1, səh. 9).

**Divan-i Lüğət-it Türk** əsərində fındığın adı "kosık" kimi öz əksini tapmışdır. Onu da qeyd edək ki, həmin əsərdə "kosık" kəlməsi həm də qız adı kimi qeyd olunur (1, səh. 9).

Fındığın tarixinə qısa nəzər yetirdikdən sonra, onun bioloji xüsusiyyətlərinə diqqət yetirək. Belə ki, fındıq ağac və kolları, "Fagales" qrupu, "Betulacaee" familiyası, "Corylus" cinsindədir. Çiçəkləmə qış aylarında olduğundan onlar əsasən kənd təsərrüfatı sahələrinin kənarlarında əkirlər ki, qışın soyuğu və kəskin küləklər mayalanma prosesinə mənfi təsir göstərməsin. Qeyd edək ki, "Corylus" cinsinin, yəni fındığın 25 növü vardır. Onların adları əsasən yetişdiyi yerlərin adı ilə adlandırılır və ağaclarının hündürlüyü 2-3 m ilə 10-15 m arasında dəyişir (1, səh. 10).

Fındıq əsasən qida sənayesi, az miqdarda isə əczaçılıq və kosmetika sənayesi üzrə istehsalda xam maddə olaraq çıxış edir. İstehsalında fındığın da iştirak etdiyi qida məhsullarına şəkərbura, paxlava, dondurmanı, pudinqi, sufleyi, şokoladı, mürəbbəni, lokum, vafli, halvanı, sosu, qurabiyə, keks, biskvit, kömbələr və s. kimi yüzlərlə şirniyyat və qidaları misal göstərmək olar. Eyni zamanda fındıqdan təbii və qovrulmuş ləpə şəklində, xırdalanmış, üyüdülmüş və s. formalarda da süfrələrimizi bəzəməkdədir (1, səh. 71-89).

Fındığın faydasından danışarkən onun tibdə geniş istifadə edilməsindən də bəhs etməliyik. Belə ki, müasir dövrdə fındıq əsasən şəkər və şokolad istehsalında istifadə edilsə də, ondan dərman vasitələrinin hazırlanmasında və xəstəliklərin müalicəsində də geniş istifadə edilir. Onu da qeyd etməliyik ki, fındığın tibdə istifadə edilməsinə çox qədimdən başlanılmışdır. Məşhur xalq təbibləri kimi tanınan **Diskorides və İbn-i Sina** öz kitablarında fındıqdan hazırlanan dərmanlardan bəhs etmişdir. Daha dəqiq desək **Diskorides** fındığın əzilməsindən alınan lətin süd və şəkərlə qarışdırılmasından alınan dərmanın öskürək xəstəliyinin müalicəsində çox təsirli olduğunu öz kitabında yazmışdır. Bununla yanaşı xalq təbabəti ilə bağlı aparılmış araşdırmalar, fındıqdan alınan qarışıqlardan dəridə olan yaraların müalicəsindən tutmuş cinsi aktivliyin artırılmasına kimi bir çox xəstəliklərin müalicəsində istifadə edilməsi faktını üzə çıxarmışdır (1, səh. 117-123).

## Azərbaycanın fındıq məhsulu və onun ixrac potensialı

Fındıqçılığın inkişafı Azərbaycanda get-gedə daha çox əhəmiyyət daşımağa başlayır. Məsələ ondadır ki, kənd təsərrüfatının sözügedən sahəsi kifayət qədər gəlirlidir. Qeyd edək ki, Azərbaycan dünyada fındıq istehsalı və ixracı sahəsində Türkiyə, İtaliya və ABŞ-dan sonra 4-cü yerdədir. Yeyinti sənayesində, qənnadı istehsalında, təbabətdə geniş istifadə olunan fındıq meyvəsinin tərkibi yağ, zülal və vitaminlərlə zəngindir. Azərbaycanda fındıq istehsalı ilə uzun müddətdir ki, məşğul olurlar. Son 10 il ərzində fındıq bağlarının altında olan əkin sahəsi təxminən 35 faiz artıb. Belə ki, 2000-ci ildə 18.350 hektar sahədə fındıq becərildiyi halda, 2011-ci ildə bu göstərici 29.350 hektara çatdırılıb. Azərbaycanda fındıq istehsalının coğrafiyası da genişlənib. Respublikada əksər iqtisadi zonalarda, ümumilikdə isə 57 rayonda fındıq istehsalı ilə məşğul olunur. Respublikamızda fındıq bitkisinin bir neçə sortu becərilir. Zaqatala, Qəbələ, Balakən rayonlarında yetişdirilən "Ata-baba" və "Yağlı fındıq" sortlarından alınan məhsullar keyfiyyətinə görə fərqlənir (6).

Azərbaycan fındığı hər hansı bir kimyəvi maddələrlə istifadə olunmadan yetişdirilir və ekoloji cəhətdən təmiz məhsul sayılır. Tərkibi yüksək faizli zülal, yağlar və karbohidratlarla zəngin olan fındıq yüksək qiymətə malikdir (7).

***Cədvəl 1.***

**Azərbaycan fındığının tərkibi** (vitamin, mineral və əsas kimyəvi elementlər)

| **Əsas kimyəvi elementlər (100gr)** | **Vitaminlər (Mg/100gr)** | **Minerallar (Mg/100gr)** |
|---|---|---|
| Nəmlik - 6%<br>Zülal - 16-19%<br>Yağ miqdarı - 60±5%<br>Sellüloza - 2,7%<br>Karbohidratlar - 9,6%<br>Kül - 2,4% | B1 - 0,3<br>B2 - 0,12<br>Nikotin.k - 1,75<br>B6 - 0,24<br>E - 31,4 | Dəmir (Fe) - 4,3<br>Kalsium (Ca) - 160<br>Sink (Zn) - 2,2<br>Kalium (K) - 655,3<br>Natrium (Na) - 2,1<br>Maqnezium (Mg) - 161,2<br>Mis (Cu) - 1,3<br>Manqan (Mn) - 5,1 |

**Mənbə**: www.azerstar.net

Fındıq insan üçün enerji mənbəyi sayılır – 100 qram fındıq ləpəsində 639 kkal, və yüksək faizli zülal 16-19% arası yerləşir. Ləpələrin 60 ± 5%-ini olein qliçerid, stearin və palmitin turşularından ibarət yağ təşkil edir. Bu turşular qanda xolesterinin artmasının qarşısını alır, qan-damar xəstəliklərindən qoruyur, həmçinin inkişaf edən orqanizmə olduqca lazımlıdır. Buna görə də fındıq uşaqların, cavanların, əsasən isə yaşlıların qidasının ayrılmaz bir hissəsini təşkil etməlidir (7).

B qrupunun vitaminləri və E vitamini ürək, əzələ, insanın reproduktiv sisteminin normal fəaliyyətinin ayrılmaz hissəsini təşkil edirlər. E vitaminin əsas özəlliyi onun orqanizmdə kanserogen faktorların əmələ gəlməsinə maneə olması bacarığıdır. Yəni, E vitamini xərçəngə, ürək xəstəliklərinə və əzələ sisteminə qarşı güclü profilaktik üsullardan biridir (7).

Fındıq – minerallar mənbəyi. Fındığın tərkibində olan minerallar cavanlarla yanaşı yetkin orqanizm üçündə xeyirlidir. (Ca) Kalsium sümük və dişləri möhkəmləndirir, (Fe) dəmir qana lazımdır, (Zn) Sink cinsi hormonların hazırlanması, (K) Kalium əsəb və əzələ sisteminin fizioloji fəaliyyətinə gərəkdir. Tərkibində yüksək

miqdarda olan kalium və kalsium natriumla birlikdə sümük quruluşunun effektiv inkişafına və yüksək qan təzyiqinin qarşısının alınmasına gətirib çıxardır (7).

*Cədvəl 2*

**Azərbaycanın fındığının ixrac potensialı**

| | 2007 | | 2008 | | 2009 | |
|---|---|---|---|---|---|---|
| | Ton | min $ | Ton | min $ | Ton | min $ |
| **İstehsal** | 27,462 | - | 27,746 | - | 30,430 | - |
| **İxrac** | 10,095 | 51,232 | 6,356 | 30,176 | 12,194 | 52,522 |
| **İdxal** | 108 | 85 | 441 | 135 | 385 | 177 |
| | **2010** | | **2011** | | **2012** | |
| | Ton | min $ | Ton | min $ | Ton | min $ |
| **İstehsal** | 29,454 | - | 32,922 | - | 29,600 | - |
| **İxrac** | 8,540 | 35,278 | 12,918 | 57,245 | 10,329 | 45,933 |
| **İdxal** | 111 | 57 | 129 | 91 | 151 | 461 |

***Mənbə:*** *Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (www.azpromo.az)*

Yuxarıdakı cədvəldə qeyd olunmuş fındığın istehsal, ixrac və idxal göstəricilərin analizi göstərir ki, 2007-2012-ci illərdə Azərbaycanda fındığın əhəmiyyətli ixrac potensialı mövcud olmuşdur. Lakin bu dövr ərzində ölkəmizdə fındıq istehsalı və ixracı göstəricilərində elə də bir ciddi dəyişiklik müşahidə olunmamışdır. Bu isə bir daha göstərir ki, son illər Azərbaycanda bu sahənin inkişafı ilə bağlı aparılmış fəaliyyət lazimi səviyyədə olmamış, fındıq istehsalı və onun ixracı sahəsində dünya təcrübəsinin təhlili göstərir ki, bu kimi mexanizmlərin əksəriyyəti ölkəmizdə formalaşdırılmamışdır.

*Cədvəl 3*

**Azərbaycandan fındıq ixracı və onun coğrafi bölgüsü,** milyon ABŞ dolları ilə

| | 2009 | 2010 | 2011 | 2012 | 2013 | payı, % |
|---|---|---|---|---|---|---|
| **Cəmi** | **52 522** | **35 278** | **57 244** | **45 933** | **45 156** | ***100.0*** |
| Rusiya | 21 977 | 24 005 | 31 326 | 35 003 | 12 953 | *28.7* |
| Aİ | 28 326 | 11 019 | 25 147 | 10 227 | 22 064 | *48.9* |
| Qazaxıstan | 80 | 0 | 1 | 132 | 8 705 | *19.3* |
| Gürcüstan | 46 | 65 | 130 | 412 | 330 | *0.7* |
| İsveçrə | 300 | 0 | 147 | 0 | 374 | *0.8* |
| Belarus | 158 | 0 | 0 | 0 | 299 | *0.7* |
| Ukrayna | 87 | 0 | 0 | 155 | 126 | *0.3* |
| İraq | 616 | 109 | 259 | 0 | 156 | *0.3* |
| Əlcəzair | 120 | 0 | 0 | 0 | 0 | *0.0* |
| İran | 122 | 0 | 0 | 0 | 0 | *0.0* |
| Tailand | 225 | 0 | 0 | 0 | 0 | *0.0* |
| BƏƏ | 212 | 66 | 169 | 0 | 0 | *0.0* |
| Türkiyə | 243 | 0 | 0 | 0 | 0 | *0.0* |
| Misir | 0 | 0 | 65 | 0 | 0 | *0.0* |
| Digər | 10 | 14 | 0 | 4 | 149 | *0.3* |

***Mənbə:*** *Beynəlxalq Ticarət Mərkəzinin (www.trademap.org) məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Eyni zamanda, Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilmiş güzəştli kreditlər, eləcə də kənd təsərrüfatı sektorunun vergilərdən azad edilməsi, həmçinin gübrə, motor yağı və dizel yanacağına görə verilən subsidiyalar, "Agroliznq" ASC tərəfindən kənd təsərrüfatının güzəştli şərtlərlə təmin edilməsi və s. kimi tədbirlər digər kənd təsərrüfatı sektorlarından fərqli olaraq fındıqçılıq sektorunda əhəmiyyətli artıma səbəb olmamışdır (11-13).

Apardığımız təhlillər göstərir ki, son 5 il ərzində Azərbaycan mənşəli fındığın ixrac coğrafiyası əsasən ənənəvi bazarlar – MDB dövlətləri təşkil etmişdir. Belə ki, 2013-cü ildə Azərbaycandan ixrac edilən fındığın təqribən yarısı MDB dövlətlərinin payına düşmüşdür. Onu da qeyd edək ki, tədqiqat dövrü ərzində Azərbaycan mənşəli fındığın coğrafiyasında ciddi dəyişikliklər qeydə alınmamışdır. Belə ki, 2013-cü ildə olduğu kimi 2009-cu ildə də ölkəmizdən fındıq əsasən MDB və Aİ ölkələrinə aparılmış, digər ölkələrin payı isə çox cüzi olmuşdur. Yalnız, Qazaxıstana fındıq ixracında mühüm artım qeydə alınmış, 2013-cü ilə kimi təqribən yarım milyon ABŞ dolları olan ixrac 2013-cü ildə 8,8 milyon ABŞ dollarınadək artmışdır (14). Digər tərəfdən, müsbət haldır ki, əvvəlki illərdən fərqli olaraq 2013-cü ildə Rusiyaya fındıq ixracı əhəmiyyətli dərəcədə azaldığı halda, Aİ ölkələrinə ixrac artmışdır. Lakin bu dəyişmələr çox qısa müddətli olmuş, təhlil apardığımız dövr ərzində Azərbaycandan Rusiyaya bir il fındıq ixracı azaldığı halda növbəti il təkrarən artmışdır. Bununla yanaşı müsbət haldır ki, tədqiqat apardığımı 5 il (2009-2013) ərzində ilk dəfə Aİ ölkələrinə fındıq ixracımız Rusiyaya ixracı üstələmişdir. Fikrimizcə, digər sahələrdə də olduğu kimi fındıq ixracında da coğrafi diversifikasiyanı təmin etməliyik. Bununla da ixracda bir ölkədən asılılığın üzə çıxara biləcəyi problemlərin qarşısını almaq, eləcə də ölkəyə xarici valyuta daxilolmalarının çeşidliliyini artırmaq, istehsalçıların gəlirlərini artırmaqla onların risklərini azaltmağa nail olmaq olar. Bu baxımdan hesab edirik ki, iqtisadi stabilliyi, qiymətlərin yüksəkliyi və iqtisadi-siyasi risklərin kifayət qədər aşağı olması ilə fərqlənən Aİ ölkələrinin Azərbaycan mənşəli fındıq üçün potensial ixrac bazarları olaraq seçilməsi məqsəduyğundur.

### Aİ ölkələrinin fındıq idxalının dinamikası və coğrafiyası

Bəs Aİ ölkələrinin sözügedən məhsul üzrə idxalı nə qədərdir? Bu məhsul Aİ bazarlarına hansı ölkələrdən ixrac olunur? Bu kimi suallara cavab tapmaq məqsədilə Aİ ölkələrinin son 5 il ərzində fındıq məhsulu üzrə idxal dinamikasına və onun coğrafiyasına nəzər yetirək. Təhlillər göstərir ki, sözügedən dövr ərzində Aİ ölkələrinin (28 ölkə) ümumi fındıq idxalı mütəmadi olaraq artmışdır. Belə ki, 2013-cü ildə Aİ ölkələrinin cəmi fındıq idxalı məbləğ olaraq 1 milyard 203,8 milyon ABŞ dolları olduğu halda 2009-cu ildə bu göstərici cəmi 957,8 milyon ABŞ dolları və ya 25,7% daha az idi (8, 9 və 14).

Maraqlısı isə budur ki, dünya ölkələri arasında ən çox fındıq istehsal edən ölkələr içərisində Aİ ölkələri önəmli yer tutduğu halda dünya fındıq idxalında da əsas yerə də bu ölkələr sahibdirlər. Belə ki, 2013-cü ildə dünya üzrə cəmi fındıq idxalının 68,1%-i Aİ ölkələrinin payına düşmüşdür. Lakin 2009-cu illə müqayisədə 2013-cü ildə Aİ ölkələrinin dünya idxalındakı payı bir qədər azalmışdır. Bu isə fındıq emalı ilə məşğul olan ölkələrin coğrafiyasının genişlənməsini və bir sıra digər ölkələrdə də fındığın xammal kimi istifadə edildiyi sənaye sahələrinin inkişaf etməsini göstərir (8 və 9).

Lakin, hələ də Aİ ölkələri dünyada ən çox fındıq idxal edən ölkələr içərisində 1-ci yerdədirlər. Fikrimizcə, bu fındıq emalı ilə məşğul olan və ondan xammal kimi edən sənaye sahələrinin (şəkər, şokolad və qənnadı məmulatları) Aİ ölkələrində geniş yayılmasından irəli gəlir.

*Cədvəl 4*

**Aİ ölkələrinin fındıq idxalı,** milyon ABŞ dolları ilə

| | 2009 | 2010 | 2011 | 2012 | 2013 | *Aİ üzrə cəmi idxalda payı, %* |
|---|---|---|---|---|---|---|
| **Dünya** | **1 294.5** | **1 470.2** | **1 585.9** | **1 555.8** | **1 767.1** | |
| Aİ | 957.8 | 1 052.3 | 1 125.3 | 1 025.6 | 1 203.8 | *100.0* |
| *Aİ-nin dünya idxalında payı, %* | *74.0* | *71.6* | *71.0* | *65.9* | *68.1* | - |
| Almaniya | 436.0 | 450.9 | 450.2 | 383.7 | 482.0 | *40.0* |
| İtaliya | 201.3 | 216.7 | 246.0 | 212.3 | 300.5 | *25.0* |
| Fransa | 104.0 | 136.6 | 137.9 | 147.2 | 132.7 | *11.0* |
| Belçika | 58.2 | 64.4 | 80.9 | 84.0 | 79.2 | *6.6* |
| İspaniya | 28.2 | 34.6 | 34.5 | 33.8 | 38.2 | *3.2* |
| Niderland | 16.5 | 22.4 | 25.0 | 24.7 | 20.4 | *1.7* |
| Avstriya | 17.6 | 18.0 | 24.9 | 22.0 | 19.6 | *1.6* |
| Çex | 10.1 | 12.4 | 14.0 | 14.3 | 18.2 | *1.5* |
| Polşa | 13.1 | 15.0 | 16.7 | 12.9 | 16.4 | *1.4* |
| Birləşmiş Krallıq | 10.5 | 15.1 | 15.8 | 15.3 | 15.8 | *1.3* |
| Danimarka | 12.8 | 11.2 | 13.4 | 11.8 | 13.8 | *1.1* |
| Yunanıstan | 13.7 | 13.8 | 15.7 | 14.4 | 13.7 | *1.1* |
| Slovakiya | 4.4 | 3.7 | 8.2 | 7.8 | 10.7 | *0.9* |
| İsveç | 6.7 | 8.7 | 10.4 | 12.8 | 10.4 | *0.9* |
| Litva | 4.1 | 5.5 | 6.3 | 5.1 | 6.7 | *0.6* |
| Rumınıya | 5.0 | 5.5 | 5.7 | 4.8 | 5.7 | *0.5* |
| Xorvatiya | 5.0 | 5.1 | 6.1 | 4.7 | 4.9 | *0.4* |
| Latviya | 2.0 | 3.0 | 3.1 | 3.2 | 3.6 | *0.3* |
| Portuqaliya | 1.1 | 1.6 | 1.5 | 1.8 | 2.3 | *0.2* |
| Estoniya | 1.3 | 1.0 | 1.3 | 1.7 | 1.9 | *0.2* |
| Macarıstan | 1.6 | 1.6 | 1.7 | 1.7 | 1.8 | *0.1* |
| Sloveniya | 1.1 | 1.4 | 2.0 | 1.4 | 1.4 | *0.1* |
| Bolqarıstan | 0.4 | 0.4 | 0.6 | 1.2 | 1.3 | *0.1* |
| Finlandiya | 0.8 | 1.0 | 1.2 | 1.1 | 0.8 | *0.1* |
| Kipr | 0.8 | 0.6 | 0.6 | 0.6 | 0.5 | *0.04* |
| Lüksemburq | 0.4 | 0.4 | 0.4 | 0.5 | 0.5 | *0.04* |
| İrlandiya | 0.9 | 1.4 | 0.8 | 0.5 | 0.5 | *0.04* |
| Malta | 0.4 | 0.4 | 0.5 | 0.4 | 0.4 | *0.03* |

***Mənbə:*** *Beynəlxalq Ticarət Mərkəzinin (www.trademap.org) məlumatları*

Yuxarıdakı cədvəldən də göründüyü kimi Aİ ölkələri içərisində ən çox fındıq idxal edən ölkə Almaniya, İtaliya və Fransa olmuşdur. Belə ki, 2013-cü ildə Aİ üzrə

cəmi fındıq idxalının 40%-i Almaniyanın, 25%-i İtaliyanın, 11%-i isə Fransanın payına düşmüşdür. Başqa sözlə bu üç ölkənin Aİ ölkələri üzrə cəmi fındıq idxalında payı 76%-ə, dünya üzrə cəmi fındıq idxalında payı isə 51,8%-i bərabər olmuşdur (8 və 9).

Göründüyü kimi Aİ ölkələri, xüsusilə də Almaniya, İtaliya və Fransa dünya fındıq bazarının önəmli hissəsinə sahibdirlər. Bəs bu ölkələrin idxal üzrə tələbləri nədən ibarətdir? İdxala tətbiq edilən gömrük rüsum dərəcələri neçədir? Fındıq idxalında hansı vergilər tətbiq edilir?

## Avropa İttifaqı ölkələrinin fındıq idxalı üzrə tələbləri

Avropa İttifaqı ölkələrinin fındıq idxalı prosedurları. Fındığın Avropa İttifaqına idxalı prosedurlarını aşağıdakı ardıcıllıq üzrə təsvir edək (8 və 15).

***1-ci mərhələ*** - Giriş Xülasə Deklarasiyasının (Entry summary declaration- ENS) doldurulması və göndərilməsi. Məhsulun idxalından əvvəl məhsulun riskin qiymətləndirmək və logsitika müddətinin yerinə yetirilməsinə nəzarət etmək üçün ixracatçı tərəfindən ENS doldurularaq gömrük girişi ofisinə (Customs entry office) göndərilməlidir. Bu sənəddə təhlükəsizliklə bağlı məlumatlar əks olunmur. Bu deklarasiya nəqliyyatın növündən asılı olaraq İttifaqın sərhədinə çatmazdan 1-4 saat əvvəl doldurularaq elektron formada göndərilməlidir.

ENS-də nəqliyyatın növü, nəqliyyatın kodu, sərhəddə çatma vaxtı, çatacağı giriş ofisi və s. haqqında məlumat olur. ENS-ni malı daşıyan və ya onun adından digər bir şəxs doldurub göndərə bilər. Gömrük ofisi ENS-ni qəbul edib hər hansı risk olmadıqda ENS-ni qeydiyyata alır və Daşınma İstinad Nömrəsi (MRN- Movement reference number) verir. ENS-nin təsdiqi haqqında məlumat malı daşıyana, ENS-ni təqdim edənə (əgər fərqli adamlardırsa) və Avropa İttifaqına birinci giriş ofisinə göndərilir. Bununla malın birinci giriş ofisinə gəlməsinə icazə verilir.

***2-ci mərhələ*** - Malların nəqliyyat vasitəsilə giriş gömrük ofisinə çatmasına az qalmış gömrük orqanlarının risk analizin aparılmasına hazırlıq məqsədilə çatma notifikasiyası verilməldir. Bu MRN verməklə və ya ENS-ə aid məlumatları təqdim etməklə hər hansı formada həyata keçirilə bilər. Mal gömrük məntəqəsinə çatanda gömrük rəsmiləşdirilməsinə başlanır.

***3-cü mərhələ*** - Malın gömrük nəzarətindən və inspeksiyalardan keçirilməsi. Mallar gömrük sərhədinə çatdıqda sonra onlara gömrük baxışı keçirilir və malın növündən asılı olaraq sanitar, fitosanitar və digər yoxlama məntəqələrindən keçirilir. Yoxlamalar müsbət olduqda inspeksiya nəticələrinə dair müsbət rəy verilir.

***4-cü mərhələ*** - Malın gömrük rəsmiləşdirilməsi. Gömrük rəsmiləşdirilməsi üçün gömrük deklarasiyası doldurularaq təqdim edilməlidir. Aİ-də gömrük deklarasiyası üzv ölkələri arasında razılaşdırılmış Vahid Adminstativ Sənəd (Single Adminstrative Document -SAD) əsasında aparılır. Bu sənəd iki formada – elektron və kağız formasında təqdim oluna bilər. SAD Azərbaycanda tətbiq olunan gömrük yük bəyannaməsinin əvəz edir və əhatə etdiyi məsələlər ölkəmizdə mövcud olan bəyannamənin əhatə etdiyi məsələlərlə eynidir. Ümumilikdə SAD-da aşağıdakılar haqqında məlumat öz əksini tapır.

- Əməliyyata cəlb olunmuş tərəflər haqqında məlumat (idxalçı, ixracatçı, nümayəndə);
- Gömrük rejimi;

- Mal haqqında məlumat (tarif kodu, çəkisi, sayı), yeri və qablaşdırması;
- Nəqliyyat vasitəsi haqqında məlumat;
- Mənşə ölkəsi, ixrac və təyinat ölkəsi haqqında məlumat;
- Kommersiya və maliyyə məlumatları (incoterms, faktura dəyəri, faktura valyutası, mübadilə dərəcəsi, sığorta və s.);
- SAD-a qoşulmuş sənədlərin siyahısı (mənşə sertikatı, nəqliyyat sənədləri və s);
- Deklarasiya və gömrük ödəniş metodları (nağd, köçürmə və s.).

SAD-la birlikdə məhsulun növündən və idxal rejimindən asılı olaraq aşağıdakı sənədlər təqdim olunmalıdır:

1. Mənşə sertifikatı (Forma A);
2. Nəqliyyat sənədi (tir karnet, ata karnet və s.);
3. Kommersiya invoysu;
4. Gömrük dəyər deklarasiyası;
5. İnspeksiya sertikatları (sağlamlıq, fitosanitar);
6. İdxal lisenziyası;
7. İdxal sertifikatı;
8. İnvoys deklarasiyası;
9. Malın yoxlama nəticələrinə dair sənədlər;
10. Qablaşdırma sənədi (packing list);
11. Konsament (bil of lading);
12. Tarif kvotasının tətbiqi üçün sənəd;
13. Aksiz vergilər üçün sənədlər;
14. ƏDV üçün sənədlər;

**Kommersiya invoysu** - idxalçı ilə ixracatçı arasında sövdələşməni sübut edən və malın faktura dəyərini əks etdirən sənəddir. İstənilən dildə ola bilər.

**Ata karnet** - sərgilərdə, yarmarkalarda istifadə və elmi analizlər məqsədilə AB-nə avtomobil nəqliyyatı ilə müvəqqəti idxal olunan mallar üçün tələb olunur.

**Gömrük dəyəri deklarasiyası** - Azərbaycanda olduğu kimi Aİ-də də idxal zamanı malın gömrük dəyərin əks etdirən və onu əsasında gömrük ödənişləri tutulan sənəd olaraq gömrük dəyər deklarasiyası (malın dəyəri 10.000 Avrodan yuxarı olduqda) təqdim olunmalıdır. Bu SAD-la birlikdə təqdim olunur.

**İdxal lisenziyası** - Aİ-də bəzi mallar üçün ÜTT-nin İdxal Lisenziyalaşdırılması sazişinin müddəalarına uyğun olaraq hər gətirilən mal partiyası üçün idxal lisenziyası tələb olunur.

**İdxal sertifikatı** - İdxalçının tələbi əsasında Aİ-nin səlahiyyətli orqanı tərəfindən idxalın axınına nəzarət, eləcədə tarif kvotalarının və qoruyucu tədbirlərin tətbiqi məqsədilə bəzi kənd təsərrüfatı məhsullarına verilən sənəddir.

**Qablaşdırma sənədi** - kommersiya invoysu ilə birlikdə təqdim olunan və hər 3-cü dərəcəli qabın içərisində olan qabların sayı, çəkisi, qablaşdırmanın növü, hər qabdakı malların miqdarı haqqında məlumat verən sənəddir.

**Konsament** - Gəmi ilə daşıma zamanı malın limanda alınmasını təsdiq edən sənəddir. Bu limanda malın gəmi sahibi tərəfindən alınmasını sübut edir və idxalçıya çatdırılır.

Gömrük ödənişlərinin hesablanması. Aİ-də bizdə olduğu kimi fındıq idxalı zamanı aşağıdakı gömrük ödənişləri tələb olunur:

⇨ İdxal gömrük rüsumları;
⇨ ƏDV;
⇨ Aksiz vergisi;
⇨ Gömrük rəsmiləşdirməsinə görə yığım;
⇨ Anbar xidməti üçün yığım;
⇨ Digər spesifik yığımlar.

Aİ ölkələrinin fındıq üzrə idxal gömrük rüsumu, ƏDV və aksiz vergiləri (8). Aparılmış təhlillər göstərir ki, Aİ ölkələrinin fındıq idxalı üzrə tarif dərəcələri eyni – **3,2%** olsa da, ƏDV dərəcələri kifayət qədər fərqlidir. Belə ki, 28 Aİ ölkəsi içərisində ən yüksək ƏDV dərəcəsi Macarıstanda (27%), ən aşağı isə Birləşmiş Krallıq, İrlandiya və Maltada (0%) mövcuddur. Digər ölkələrdə isə ƏDV dərəcələri 0 ilə 27 arasında dəyişir. Onu da qeyd edək ki, Aİ qanunvericiliyinə əsasən fındıq məhsulu üzrə idxal zamanı aksiz vergisi nəzərdə tutulmamışdır.

*Cədvəl 5*

**Aİ ölkələrinin fındıq məhsulu üzrə idxal gömrük rüsumu və ƏDV dərəcələri, %**

| Ölkə | ƏDV | Tarif | Ölkə | ƏDV | Tarif |
|---|---|---|---|---|---|
| Almaniya | 7 | 3.2 | Kipr | 5 | 3.2 |
| Avstriya | 10 | 3.2 | Latviya | 21 | 3.2 |
| Belçika | 6 | 3.2 | Litva | 21 | 3.2 |
| Birləşmiş Krallıq | 0 | 3.2 | Lüksemburq | 3 | 3.2 |
| Bolqarıstan | 20 | 3.2 | Macarıstan | 27 | 3.2 |
| Çex | 15 | 3.2 | Malta | 0 | 3.2 |
| Danimarka | 25 | 3.2 | Niderland | 6 | 3.2 |
| Estoniya | 20 | 3.2 | Polşa | 5 | 3.2 |
| Finlandiya | 14 | 3.2 | Portuqaliya | 23 | 3.2 |
| Fransa | 5.5 | 3.2 | Rumıniya | 24 | 3.2 |
| İrlandiya | 0 | 3.2 | Slovakiya | 20 | 3.2 |
| İspaniya | 4 | 3.2 | Sloveniya | 9.5 | 3.2 |
| İsveç | 12 | 3.2 | Xorvatiya | 25 | 3.2 |
| İtaliya | 4 | 3.2 | Yunanıstan | 13 | 3.2 |

***Mənbə:*** *Aİ-nin ixraca dəstək platformasına (www.exporthelp.europa.eu.) əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Avropa İttifaqının idxalla bağlı tələbləri (8 və 15). Avropa İttifaqı ölkələrinin fındıq idxalı ilə bağlı tələbləri aşağıdakılardır:

✓ Gömrük rejimləri;
✓ İdxal ticarət rejimi;
✓ Qida təhlükəsizliyi;
✓ Bitki sağlamlığı;
✓ Markalanmaya tələblər.

**Gömrük rejimləri -** Avropa İttifaqının gömrük məsələləri Komissiya tərəfindən qəbul edilmiş Gömrük Məcəlləsi (800 səhifəlik) ilə tənzimlənir. 28 üzv ölkədə tətbiq edilən bu məcəllə Aİ-nin vahid idxal prosedurаların müəyyənləşdirir. Aİ-də ölkəmizdə olduğu kimi aşağıdakı idxal gömrük rejimləri mövcuddur:

- Sərbəst dövriyyə üçün buraxılış;
- Tranzit;
- Gömrük anbarı;

- Gömrük nəzarəti altında emal;
- Müvəqqəti idxal;
- Azad zonalar və anbarlara giriş.

Bu rejimlər üzrə idxal şərtləri və gömrük ödənişləri təxminən bizdə olduğu kimidir. Belə ki, mallar Avropa İttifaqında alqı-satqı obyekti olduqda və İttifaq daxilində istehlak olunduqda malın idxalından gömrük rüsumu tutulur.

**Tarif və qeyri-tarif tədbirləri -** Avropa İttifaqında idxala tətbiq olunan tarif və qeyri tarif tədbirləri aşağıdakılardan ibarətdir:

1. Tarif tədbirləri:
   - İdxal tarif kvotalar- bəzi kənd təsərrüfatı malları üçün;
   - Qoruyucu tədbirlər – bəzi xüsusi məhsullar üçün;
   - Antidempinq və kompensasiya rüsumları – məhsulu dempinqə və squbsidiyalaşdırmaya məruz qalmış bəzi ölkələrin məhsulları üçün.

**Qeyd:** *Azərbaycanda fındıq istehsalı subsidiyalaşdırılmadığından və ya onun ixracı dempinqə məruz qalmadığından bu cür rüsumlar Azərbaycan mənşəli fındığın idxalına tətbiq edilmir.*

2. **Qeyri-tarif tədbirləri:**
   - Kvotalar;
   - İdxal lisenziyası;
   - Sanitar və fitosanitar tədbirlər, texniki tələblər, keyfiyyət tələbləri;
   - İdxal sertifikatı.

**Avropa İttifaqında qida təhlükəsizliyi -** Avropa İttifaqında insan və heyvan qidasına dair tələblər direktivlər əsasında müəyyənləşdirilib. Ümumilikdə tələblər aşağıdakı sənədlərdə öz əksini tapıb:

- Qida məhsullarında dair ümumi tələbləri müəyyənləşdirən Aİ-nin Qida məhsulları haqqında Qanunu (Regulation 178/2002);
- Qida məhsullarına dair gigiyenik tələblər əks etdirən Qərar (Regulation 853/2004);
- Pesdisitlər, baytarlıq dərmanları və digər maddələrə aid tələblər əks etdirən sənədlər;
- GMO tərkibli məhsulların istehsalına və dövriyyəsinə dair Direktivlər;
- Qablaşdırma və markalanmaya dair tələblər əks etdirən direktivlər və s.

Avropa İttifaqında qida məhsulların idxalına dair tələblər aşağıdakı məhsul kataqoriyaları üçün fərqli müəyyənləşdirilib:

- Bitki mənşəli məhsullar:
  1. *HACCP tələblərinə uyğun olmalıdır*;
  2. *Qanunvericiliyin və Direktivlərin tələblərinə uyğun istehsal edilməlidir.*
- Qarışıq qida məhsulları:
  1. *HACCP tələblərinə cavab verməlidir*;
  2. *Yuxarıdakı tələblərə uyğun olmalıdır və s.*

**Bitki mənşəli məhsulların idxalına tələblər -** Bitki məhsulları isə aşağıdakı tələblərə cavab verdikdə idxal oluna bilər:

- Bitki və bitki məhsulları istehsaldan əvvəl, istehsal zamanı və digər mərhələlərdə qoyulmuş gigiyenik və fitosanitar tələblərə uyğun olmalıdır;

- Məhsullar fitosanitar sertifikata malik olmalıdır;
- Sərhəd İnspeksiya Postunda yoxlamadan keçməlidir;
- Mallar sərhədə çatmamışdan qabaq məlumatlandırılmalıdır;
- Bitki məhsulları ilə yanaşı bitki əlavələri, bitki məhsulları ilə əlaqədə olan materialları da tələblərə uyğun olmalıdır.

**Aİ-nin qablaşdırmaya və markalanmaya dair tələbləri -** Qablaşdırmaya dair müvafiq bölmədə geniş məlumat verildiyindən burada sadəcə markalanmaya dair Aİ-nin tələblərin (yeyinti məhsulları üçün) qeyd edirik (məhsulun üzərində qeyd olunmalı məlumatlar):

- Məhsulunun satılarkən adı;
- Məhsulun tərkibi;
- Məhsulun tərkibinin miqdarı;
- Məhsulun qablaşdırmadan qabaq çəkisi;
- Məhsulun istismar müddəti;
- Saxlanma və istifadə şəraiti;
- İstehsalçının adı, ünvanı və əlaqə vasitələri;
- Məhsulun mənşə ölkəsi;
- Məhsulun istifadə qaydaları;
- Məhsulu xüsusi tərkibi – GMO, təhlükəli maddələr və s.

## Azərbaycandan Aİ ölkələrinə fındıq ixracının müasir vəziyyəti və onun artırılması yolları

Aİ ölkələrinə fındıq ixracının artırılması yollarının müəyyənləşdirilməsindən əvvəl Azərbaycandan Aİ-yə fındıq ixracının dinamikası, onun coğrafiyası ilə bağlı göstəriciləri nəzərdən keçirək.

*Cədvəl 6*

**Azərbaycandan Aİ ölkələrinə fındıq ixracı**, min ABŞ dolları

| | 2009 | 2010 | 2011 | 2012 | 2013 | *Aİ idxalında payı, %* |
|---|---|---|---|---|---|---|
| **Aİ** | **28 326** | **11 019** | **25 147** | **10 227** | **22 064** | *100,0* |
| Almaniya | 13 916 | 6 010 | 10 853 | 7 317 | 10 719 | *48.6* |
| İtaliya | 8 439 | 3 189 | 11 665 | 270 | 9 227 | *41.8* |
| Fransa | 511 | 66 | 395 | 282 | 984 | *4.5* |
| Polşa | 3 091 | 1 268 | 1 567 | 1 226 | 808 | *3.7* |
| Belçika | 749 | 316 | 360 | 676 | 123 | *0.6* |
| Niderland | 0 | 0 | 0 | 0 | 123 | *0.6* |
| Litva | 445 | 48 | 140 | 80 | 80 | *0.4* |
| Çex | 362 | 122 | 0 | 0 | 0 | *0.0* |
| Danimarka | 310 | 0 | 0 | 0 | 0 | *0.0* |
| Latviya | 0 | 0 | 47 | 0 | 0 | *0.0* |
| Slovakiya | 0 | 0 | 120 | 0 | 0 | *0.0* |
| İspaniya | 503 | 0 | 0 | 376 | 0 | *0.0* |

***Mənbə:*** *Beynəlxalq Ticarət Mərkəzinin (www.trademap.org) məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəldən də göründüyü kimi 2009-2013-cü illərdə Azərbaycanın fındıq ixracında əsas Aİ ölkələri qismində Almaniya və İtaliya çıxış etmişdir. Belə ki, təkcə 2013-cü ildə Azərbaycandan Aİ-yə fındıq ixracının məbləğ olaraq 90,4%-i bu iki

ölkənin payına düşmüşdür. Bununla yanaşı, sözügedən dövr ərzində Aİ ölkələrindən Fransa, Polşa və Belçika da Azərbaycanın fındıq ixracı üzrə əsas tərəfdaşlarından olmuşdur (9).

Azərbaycandan Aİ ölkələrinə fındıq ixracının dinamikasına nəzər yetirdikdə məlum olur ki, 2009-2013-cü illərdə kifayət qədər ciddi dalğalanmalar müşahidə edilmişdir. Belə ki, 2009-cu ildə Azərbaycandan Aİ-yə fındıq ixracı 28,3 milyon ABŞ dolları olduğu halda 2010-cu ildə bu göstərici 11 milyon ABŞ dolları, və ya 61% daha az olmuşdur. 2011-ci ildə isə bu rəqəm əvvəlki illə müqayisədə 2,3 dəfə çox, 2012-ci ildə 2011-ci ilə nisbətən 59,3% az, 2013-də isə 2012-ci illə müqayisədə 2,2 dəfə çox olmuşdur (9).

*Cədvəl 7*

**Aİ ölkələrinin fındıq idxalı və bu idxalda Azərbaycanın payı**

| | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| Aİ-nin dünyadan idxalı, mln. ABŞ dolları | 957.8 | 1 052.3 | 1 125.3 | 1 025.6 | 1 203.8 |
| Azərbaycandan Aİ-yə ixrac, mln. ABŞ dolları | 28.3 | 11 | 25.1 | 10.2 | 22.1 |
| *xüsusi çəkisi, %* | *3.0* | *1.0* | *2.2* | *1.0* | *1.8* |
| *o cümlədən* | | | | | |
| *Almaniyanın idxalında Azərbaycanın payı, %* | *3.2* | *1.3* | *2.4* | *1.9* | *2.2* |
| *İtaliyanın idxalında Azərbaycanın payı, %* | *4.3* | *1.5* | *4.8* | *0.1* | *3.1* |
| *Belçika idxalında Azərbaycanın payı, %* | *1.2* | *0.5* | *0.5* | *0.8* | *0.1* |

***Mənbə:*** *Beynəlxalq Ticarət Mərkəzinin (www.trademap.org) məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Təhlillər göstərir ki, Aİ ölkələrinin fındıq idxalında Azərbaycanın xüsusi çəkisi o qədər də yüksək olmamış, ölkəmizdə bu sahə üzrə mövcud potensialla uyğunluq təşkil etməmişdir. Belə ki, 2013-cü ildə Azərbaycandan Aİ-yə fındıq ixracı, həmin ölkələrin eyni məhsul üzrə idxalının cəmi 1,8%-ni, o cümlədən Almaniyanın idxalında 2,2%, İtaliya idxalında 3,1%, Belçika idxalında isə cəmi 0,1% təşkil etmişdir. Qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, ölkədən Aİ-yə, xüsusilə də Almaniya, İtaliya və Belçikaya fındıq ixracını dəfələrlə artırmaq olar. Bir sözlə, Aİ ölkələri Azərbaycan fındığı üçün ənənəvi olmayan, eyni zamanda kifayət qədər böyük həcmli potensial ixrac bazarıdır. Hesab edirik ki, bütün bunlar nəzərə alınaraq Azərbaycanda istehsal olunan fındığın həm ixracının artırılması, həm də onun ixrac coğrafiyasının diversifikasiyası baxımından Aİ bazarları diqqətlə nəzərdən keçirilməli və qiymətləndirilməlidir.

Azərbaycandan Almaniyaya fındıq ixracı imkanları (8 və 9). Almaniyanın fındıq idxalının coğrafiyası o qədər də geniş deyildir. Belə ki, ümumi idxalın əksər hissəsi bir neçə ölkənin payına düşür. Başqa sözlə, 2013-cü ildə Almaniyaya ixrac edilən fındığın 72,6%-i Türkiyədən, 10,5%-i İtaliyadan, 10,4%-i Gürcüstandan, 2,3%-i isə Azərbaycandan gətirilmişdir.

Göründüyü kimi, Azərbaycanın Almaniyanın fındıq idxalında payı çox cüzi olmuşdur. Lakin apardığımız təhlillər ölkəmizdə istehsal edilən fındığın Almaniya bazarlarına ixracı ilə bağlı bir sıra üstünlüklərin olduğunu göstərir. Belə ki, aşağıdakı cədvəldən də göründüyü kimi Almaniyanın 2013-cü ildə idxal etdiyi fındığın hər

kiloqramının orta qiyməti 7,2 ABŞ dolları olmuşdur. Lakin Azərbaycan mənşəli fındığın qiyməti bu göstəricidən təqribən 1 ABŞ dolları az, yəni 6,1 ABŞ dollarına bərabər olmuşdur.

*Cədvəl 8*

**Almaniyanın fındıq idxalının coğrafiyası və hər kiloqramının qiyməti**, $/kq

| İxracatçılar | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| **Dünya** | **6.2** | **6.5** | **7.3** | **7.1** | **7.2** |
| Türkiyə | 6.0 | 6.5 | 7.3 | 7.1 | 8.3 |
| İtaliya | 6.1 | 6.4 | 7.2 | 7.3 | 6.9 |
| Gürcüstan | 4.8 | 5.4 | 7.1 | 6.7 | 6.1 |
| Azərbaycan | 5.4 | 5.8 | 7.1 | 7.1 | 6.1 |
| Lüksemburq | 7.5 | 7.1 | 7.5 | 7.1 | 8.5 |
| İspaniya | 4.0 | 5.6 | 6.7 | 7.3 | 6.2 |
| Niderland | 5.0 | 6.2 | 7.1 | 7.3 | 6.7 |
| Fransa | 5.6 | 5.3 | 7.9 | 5.7 | 5.9 |

***Mənbə:*** *Beynəlxalq Ticarət Mərkəzinin (www.trademap.org) məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Digər ölkələrdən idxalın qiyməti, məsələn, Türkiyədən hər kiloqramı 8,3 ABŞ dolları, İtaliyadan 6,9 ABŞ dolları, Lüksemburqdan 8,5 ABŞ dolları, İspaniya 6,2 ABŞ dolları və Niderlanddan 6,7 ABŞ dolları olmuş yalnız Fransa mənşəli fındığın qiyməti Azərbaycan fındığından ucuz hər kiloqramı 5,9 ABŞ dollarına başa gəlmişdir. Bütün bunlar isə göstərir ki, ölkəmizdə istehsal olunan fındıq digər ölkələrə nisbətən Almaniya bazarında qiymət üstünlüyünə malikdir.

Azərbaycandan İtaliyaya fındıq ixracı imkanları (8 və 9). İtaliyanın fındıq idxalının təhlili göstərir ki, son 5 il ərzində bu proses davamlı olaraq artmışdır. Belə ki, 2009-cu ildə İtaliyanın fındıq idxalı məbləğ olaraq 188 mln. ABŞ doları olduğu halda, 2013-cü ildə bu rəqəm 270 mln. ABŞ dollarına yüksəlmişdir. Paralel olaraq İtaliyanın fındıq idxalı miqdar olaraq da 2009-cu ildən 2013-cü ilə kimi artmışdır.

*Cədvəl 9*

**İtaliyanın fındıq idxalının coğrafiyası və qiyməti, $/kq**

| İxracatçılar | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| **Dünya** | **6.2** | **6.6** | **7.2** | **7.2** | **7.6** |
| Türkiyə | 6.4 | 6.7 | 7.2 | 7.4 | 7.8 |
| Gürcüstan | 4.4 | 5.5 | 6.5 | 6.6 | 6.2 |
| **Azərbaycan** | **4.5** | **5.2** | **7.4** | **6.5** | **6.4** |
| Almaniya | 4.5 | 7.3 | 7.4 | 7.6 | 7.5 |
| İspaniya | 4.3 | 6.4 | 7.1 | 6.5 | 6.7 |
| Fransa | 6.0 | 5.7 | 4.2 | 4.4 | 5.6 |
| ABŞ | - | - | 7.9 | 5.1 | 5.0 |
| Slovakiya | - | - | - | - | 6.1 |
| Avstriya | 6.1 | 7.4 | 8.9 | 8.1 | 4.5 |
| Argentina | - | - | - | - | 6.6 |

***Mənbə:*** *Beynəlxalq Ticarət Mərkəzinin (www.trademap.org) məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Onu qeyd edək ki, 2009-2013-cü illərdə İtaliyanın 3-cü ən böyük idxal tərəfdaşı kimi Azərbaycandan bu məhsulun idxalı da davamlı olaraq artmışdır. Bu əməliyyat üzrə ixracın məbləği və miqdarının ən yüksək həddi 2011-ci ildə, ən aşağı həddi isə 2012-ci ildə müşahidə edilmişdir. Belə ki, Azərbaycandan İtaliya fındıq ixracının məbləği 0,72 mln. ABŞ dolları, 2011-ci ildə isə 12,7 mln. ABŞ dolları təşkil etmişdir.

İtaliyanın idxal etdiyi fındığın hər kq-nın orta qiyməti 2013-cü ildə 7,6 ABŞ dolları olmuşdur. Ən bahalı fındıq Türkiyədən – hər kq-ı 7,8 ABŞ dolları, ən ucuz isə Avstriyadan – hər kq-ı 4,5 ABŞ dollarına idxal edilmişdir. Azərbaycandan idxal edilən fındığın qiyməti isə orta qiymətdən bir qədər aşağı başqa sözlə, hər kq-ı 6,4 ABŞ dolları olmuşdur. Bu isə bir daha göstərir ki, İtaliya bazarında Azərbaycan fındığı, Türkiyə, Almaniya və İspaniyaya münasibətdə qiymət üstünlüyünə malikdir.

**Nəticə və təkliflər**

Qeyd olunan üstünlüklərlə yanaşı Azərbaycan mənşəli fındığın istehsalı və ixracı ilə bağlı bəzi zəif cəhətlər və çatışmazlıqlar mövcuddur. Belə zəif cəhətlərdən birincisi kimi məhsulumuzun standartları əldə etməsi ilə bağlı çətinliklərdən ibarətdir. Digər bir ifadə ilə xarici bazarların, xüsusilə də Aİ ölkələrinin idxal məhsullarına münasibətdə tələb etdiyi yüksək səviyyəli standartlar və sertifikatların əldə edilməsi kiçik sahibkarlar, xüsusilə də ailə kəndli təsərrüfatları üçün o qədər də asan olmur. İlk növbədə fındıq ixracatçıları bu sertifikatları əldə etmələri müəyyən miqdarda vəsait tələb edir. Digər tərəfdən, xarici ölkələr tərəfindən idxal zamanı sertifikatları qəbul edilən və kifayət qədər inam qazanmış beynəlxalq laboratoriyaların ölkəmizdə akkreditasiya edilməsinin gecikməsi yerli ixracatçının bu kimi sertifikatları əldə etməsini çətinləşdirməkdədir.

Hesab edirik, əgər fındıq məhsulunun ixracı ilə bağlı Aİ bazarlarını potensial hədəf kimi seçmişiksə, onda Aİ standartlarına uyğun gələn məhsul istehsalını təmin etməliyik. Bu isə ilk növbədə istehsal prosesindən, hətta istehsaldan əvvəl təbii-iqlim şəraitindən birbaşa asılıdır. Başqa sözlə fındıq ağaclarının əkildiyi torpaqların ekoloji təmiz olmasına xüsusi diqqət yetirilməli, məhsulun tərkibində zərərli maddələrin əmələ gəlməsinə və artmasına imkan verilməməlidir. Bu isə kiçik maliyyə imkanlarına malik kəndli fermer təsərrüfatlarına dövlət dəstəyi olmadan çox çətindir. Burada dövlət dəstəyi dedikdə yalnız maliyyə vəsaiti deyil eyni zamanda texniki və elmi-metodiki dəstək də nəzərdə tutulur. Hesab edirik ki, yuxarıda qeyd olunanlarla bağlı müxtəlif mexanizm və alətlərin formalaşdırılmasına və müvafiq dəstəliyin göstərilməsinə ehtiyac vardır.

Digər bir məsələ fındıq istehsalçılarının əsasən kiçik kəndli fermer təsərrüfatlarından ibarət olması və onların ixrac prosesində demək olar ki iştirak etməməsidir. Belə ki, ölkəmizdə kiçik kəndli fermer təsərrüfatları tərəfindən istehsal olunan fındıq ya bir neçə iri emal müəssisələri tərəfindən alınaraq ondan hazır məhsul istehsal edilir ya da xarici bazarlara ixrac edilir. Beləliklə, fındıqdan əldə edilən gəlirin az bir hissəsi istehsalçıya gəlib çatdığı halda gəlirin əsas hissəsi ixracatçı müəssisələr və ya “vasitəçilər” tərəfindən mənimsənilməkdədir. Fikrimizcə, fındıq istehsalçıları öz məhsulunu xarici bazarlara yəni, son istehlakçıya şəxsi imkanları ilə çatdırması onun bu fəaliyyətdən daha çox gəlir əldə etməsinə gətirib çıxara bilər. Hesab edirik ki, bunun üçün “Azərbyacan fındıq istehsalçıalrı” və ya “Azərbaycan fındıq ixracatçıları” Birliklərinin yaradalımasına ehtiyac vardır.

Digər əsas bir məsələ ixracın kifayət qədər vəsait tələb etməsi faktıdır. Yuxarıda qeyd etdiyimiz kimi, ölkəmizdə istehsal olunan fındığın əsas hissəsi kiçik kəndli fermer təsərrüfatlarının payına düşdüyündən və onların maliyyə imkanlarının məhdudluğu bu təsərrüfat subyektlərinin ixrac prosesində iştirakını məhdudlaşdırır. Belə ki, Dünya Bankının "Doing Business 2014" adlı hesabatının Azərbaycan Respublikası ilə bağlı hissəsində 20 foot və ya 6,1 metr uzunluğunda 1 konteynerin (33,9 $m^3$ və ya təqribən 26,3 ton) ixrac üçün 3540 ABŞ dolları həcmində vəsaitin tələb olunduğu öz əksini tapmışdır. Bu isə göründüyü kim, fındıq istehsal edən kəndli-fermer təsərrüfatları üçün çox böyük bir məbləğdir. Eyni zamanda nəzərə alsaq ki, ixrac ölkəsindən asılı olaraq gömrük rüsumu və vergilərin (ƏDV, aksiz və s.) ödənilməsi vəziyyəti daha da çətinləşdirən amillərdəndir (5, səh. 188).

Yuxarıda qeyd olunanları nəzərə alaraq Azərbaycanda fındıq istehsalının artırılması, eləcə də onun ixracının artırılması və onun ixrac coğrafiyasının genişləndirilməsi məqsədilə aşağıdakıları təklif edirik:

***Fındıq istehsalının artırılması üçün:***

- "Fındıqçılığın inkişafı Dövlət Proqramı"nın qəbul edilməsini;
- Fındıq satış və ixrac kooperativlərinin təşkilinin dəstəklənməsini;
- Fındıq sektorunun güzəştli şərtlərlə sığortalanması məqsədilə dövlət tərəfindən müəyyən stimullaşdırıci tədbirlərin həyata keçirilməsi;
- Fındığın elmi olaraq üstünlüyü sübut olunmuş üsullarla qurudulub satışa çıxarılması;
- Fındıq istehsalçıları üçün SKMF xətti ilə güzəştli kreditlərin verilməsini;
- Fındıq istehsalçılarının dəstəklənməsi məqsədilə subsidiyaların təsis edilməsini.

***Fındıq ixracının genişləndirilməsi üçün:***

- Azərbaycan Fındıq İxracatçıları Birliyinin formalaşdırılmasını;
- Fındıq ixractaçılarına ixrac subsidiyalarının verilməsini;
- Fındıq ixracatçıları üçün güzıştli ixrac kreditlərinin verilməsi;
- Aİ ölkələrində fındıq təqdimatı ilə bağlı səfər və proqramlarının təşkili
- Fındığın tərkibindəki zərərli "aflatoksion" maddəsinin yaranmasının qarşısının alınması yolu ilə ixrac imkanlarının artırılması və istehsalçı gəlirlərinin yüksəldilməsi.

***Azərbaycan Fındığının marketinqi üçün:***

- Fındıq festivalının təsis edilməsi və hər il keçirilməsini;
- Növbəti Beynəlxalq Fındıq Konqresinin Azərbaycanda keçirilməsini.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Mustafa Duman – "Fındık Kitabı – Türk Kültüründe Fındık" (Fındıq Kitabı – Türk mədəniyyətində Fındıq), Bayrak mətbəəsi, İstanbul 2008.
2. Burhan Oğuz – "Türkiye Halkının Kültür Kökenleri" (Türkiyə xalqının mədəni kökləri) 1, Anadolu Aydınlanma Vakfı Yayınları, İstanbul, 1976.
3. Herodotos, Herodot Tarihi (dördüncü kitab), Remzi kitabevi, İstanbul 1973.
4. Kemal Peker, "Fındık, Tarihçe, Tarım, Kültür, Ticaret və İsthilak Bakımından" Yeşilgireson Matbaası, Gireson 1947.

5. Sevda İmamverdiyeva – İxrac diversifikasiyası sahəsində "İdxal-ixrac bank"larının (Eximbank) rolu, Azərbaycan Vergi Jurnalı 3(117)/2014, səh.177-190.
6. http://www.baki-xeber.com/v5/00096995602.html
7. http://azerstar.net/az/istehsalat/fndq-haqqnda.html
8. www.exporthelp.europa.eu
9. www.trademap.org
10. www.bakfem.com
11. www.anfes.gov.az
12. www.agrolizing.az
13. www.agro.gov.az
14. www.stat.gov.az
15. www.azpromo.az

## Current situation and increasing ways of the nuts export of Azerbaijan to European Countries

**Elnur Aliyev**

*Summary*

Have been learned European Countries' nuts import dynamics and geographic structure, import procedure and rules, import duties and taxes of nuts, the same time expanding ways of Azerbaijan's nut export to these markets in this paper.

The same time, have been investigated advantages and disadvantages of Azerbaijan origin nuts in the EU markets and have been put forward with increasing of its' competitiveness for export diversification as well as the increasing of non-oil export.

**Key words:** European Countries, nuts, export potential, export geography, Exporter Unions of Nuts.

## Современное состояние экспорта фундука из Азербайджана в страны Евросоюза и пути его увеличения.

**Эльнур Алиев**

*Резюме*

В статье изучены динамика и география импорта фундука в страны Евросоюза, процедуры и порядок ввоза, таможенные пошлины и налоги, а также пути увеличения экспорта данного продукта из Азербайджана в эти рынки .

Наряду с этим для достижения диверсификации экспорта, а также увеличения ненефтяного экспорта были изучены сильные и слабые стороны азербайджанского фундука на рынках Евросоюза и были выдвинуты предложения по увеличению его конкурентоспособности.

**Ключевые слова:** Европейский Союз, фундук, экспортный потенциал, география экспорта, Объединение Экспортеров Фундука.